

# Mehriban Əliyeva Azərbaycan xalqını təbrik edib

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Dövlət Müstəqilliyi Günü münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib.* Paylaşımda deyilir: "Əziz həmvətənlər! Sizi Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik edirəm! Ölkəmizə davamlı inkişaf, yeni-yeni nailiyyətlər, sülh və firavanlıq arzulayıram".

*Səh.2*


24 səhifə
Həftəlik qəzet

# UNİKAL

№47 (1986) 19 oktyabr 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Pensiyalar artırılacaq, 11 min vətəndaş işlə təmin olunacaq

Nazir: "Pensiyaların orta aylıq məbləğinin 16 faiz artımına və orta aylıq pensiya məbləğinin 293 manata çatdırılması planlaşdırılır"

*Gələn il Azərbaycanda işsiz olan 11 min ailə özünüməşğulluq layihələrinə cəlb ediləcək. Unikal.org xəbər verir ki, bunu oktyabrın 15-də Prezident İlham Əliyevin yanında iqtisadi müşavirədəki çıxışında Əmək və Əhalinin Müdafiəsi naziri Sahil Babayev bildirib. Nazir qeyd edib ki, Gələn il ərzində sırf İşsizlikdən Sığorta Fondu hesabına 11 min ailənin özünüməşğulluq layihələrində iştirakının maliyyələşdirilməsi planlaşdırılır: "Xərclərimiz 128 milyon 200 min manat məbləğində nəzərdə tutulur və bunun ana xəttini Sizin tapşırığınıza müvafiq olaraq İşsizlikdən Sığorta Fondu hesabına maliyyələşdirilən özünüməşğulluq layihəsi təşkil edir, 63 milyon manat vəsait məhz özünüməşğulluq layihəsinə yönəldiləcəkdir.*

Səh.9

Səh.12



# Azərbaycanda islahatların yeni dalğası gəlir

## "Müxalifət olaraq xalqın taleyinə görə biz də məsuliyyət daşıyırıq"



*Son günlər ölkədə ictimai-siyasi proseslərdə müəyyən aktivlik müşahidə olunur. Hətta uzun müddət siyasi proseslərdən kənarda dayanan AMİP lideri Etibar Məmmədovun da siyasətə qayıdacağı ilə bağlı müzakirələr aparılır. "Unikal" qəzetinə müsahibə verən AMİP Siyasi Şurasının üzvü Əli Orucovla söhbətə də elə bu mövzudan başladıq.*

Səh.4

## Yeniyetmə qızlar arasında narkotik istifadəçilərin sayı artıb



*Narkomaniya bəşəriyyət üçün bəla sayılsa da, ən təhlükəli hal bu bəlaya erkən yaşdan düçar olanların sayının artmasıdır. Azərbaycanda da dünyada olduğu kim uşaqlar arasında narkotik maddələrə aludəçilik cəmiyyəti ciddi narahat edən məqama çevrilib. İllər öncə məktəb yaşlı uşağın narkotik maddə istifadə etməsi...*

Səh.8

## Həmsədrlərin regiona növbəti səmərəsiz səfəri




*ATƏT-in Minsk qrupunun həmsədrləri (İqor Popov - Rusiya, Stefan Viskonti - Fransa və Endryu Şofer - ABŞ) ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Andjey Kasprşiklə birlikdə oktyabrın 14-dən 17-nə qədər regiona səfər ediblər.*

Səh.13